# GƏNCƏ-160 PAMBIQ SORTUNUN İŞĞALDAN AZAD EDİLMİŞ BOZ-CƏMƏN TORPAQLARDA ƏKİLİB BECƏRİLMƏ PERSPEKTİVLƏRİ

**Məryəm Bağırova**

*Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutu, meryembagirova20@gmail.com*

İşğaldan azad edilmiş ərazilərimizdə kənd təsəsrrüfatı istehsalının bərpası üçün ərazinin keçmiş potensialı araşdırılmalıdır.

Dövlətimizin əsas strateji hədəflərindən biri qeyri-neft sektorunu, o cümlədən pambıqçılığı inkişaf etdirməkdir. Çünki pambıq xammalından alınan məhsullar ixrac potensialını artırmaqla ölkəmizə valyuta qazandırmaqla, strateji baxımdan dayanıqlı inkişafın təmin edilməsində xüsusi əhəmiyyət kəsb edir. Problemin aktuallığını nəzərə alaraq işğaldan azad edilmiş ərazilərdə mövcud olan boz-cəmən torpaqlarda Gəncə-160 pambıq sortunun əkilib becərilməsini təklif edirik.

Ona görə ki, 2019-2021-ci illərdə Bitki Mühafizə və Texniki Bitkilər Elmi Tədqiqat İnstitutunun Beyləqan rayonunun Bolsulu kəndinin boz-çəmən torpaqlarında apardığımız elmi tədqiqat işlərinin nəticələri əsasında, hektara 45,3 s/ha xam pambıq və yüksək keyfiyyətli lif çıxımı alınmasını təmin edən səmərəli becərmə aqrotexnologiyası tərəfimizdən işlənib hazırlanmışdır.